# İlham Əliyevin son mesajları dünya mediasında

İyulun 10-da Azərbaycan Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı geniş nitqi ölkə KİV-i ilə yanaşı, dünya mediasının da gündəmində əsas yer tutub.

Qeyd edək ki, dövlət başçısı çıxışında dünyada təhlükələrin artması, iqtisadi böhranın daha da dərinləşməsi ilə bağlı fikirlər səsləndirib və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son proseslərə toxunaraq işğalçı ölkəyə xəbərdarlıq edib. Dünya mediasının Prezident İlham Əliyevin mesajlarına geniş yer verməsi isə bir daha sübut edir ki, dövlət başçısının timsalında bu gün Azərbaycan tək bölgədə deyil, dünyada söz sahibi kimi qəbul edilir. Bölgənin açar dövlətinə çevrilən Azərbaycan qüdrətli dövlət kimi istənilən məsələdə ən etibarlı tərəfdaşdır.

Türkiyə mediasının manşet yazılarında, xəbərlərində daha çox dövlət başçısının Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı söylədiyi fikirlər yer alıb. “Sabah”, “Takvim”, “Star” qəzetləri, “Ensonhaber”, “Euroturknews”, “Haberler” “Avazturk”, “Newsjs” və digər xəbər saytlarında dərc edilən yazılarda qeyd edilir ki, Azərbaycan Prezidenti münaqişənin həlli istiqamətindəki danışıqlarda son 3-4 ay ərzində tarixdə görünməmiş hərəkətlilik yaşandığını söyləyib. Dövlət başçısı bildirib ki, Ermənistan Vyanadakı görüşün baş tutması üçün bəzi şərtlər irəli sürüb. Ancaq işğalçı ölkə bu şərtləri irəli sürməklə özünü gülməli duruma salıb. Çünki bu dövlətin başında duranlar yaxşı bilirlər ki, Azərbaycan heç bir şərt qəbul etməyəcək. Aprel zəfəri isə bir daha göstərdi ki, Ermənistanın təxribat xarakterli əməlləri davam edərsə, sülh danışıqları pozula bilər. Azərbaycan Prezidenti tezliklə münaqişənin öz həllini tapmasının, status-kvonun dəyişilməsinin vacibliyini vurğulayıb. Dövlət başçısı münaqişənin beynəlxalq hüququn norma və prinsipləri, həmçinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmasının vacibliyini söyləyərək həmsədr ölkələri və ATƏT-i Ermənistana ciddi təzyiq göstərməyə çağırıb.

Bu mövzunu davam etdirən Rusiyanın “İnterfax”, “İTAR-TASS” agentlikləri, “Vestnikkavkaz”, “Ekhokavkaza”, “Novoteka” və digər internet saytları dövlət başçısının iqtisadi məsələlərlə bağlı səsləndirdiyi fikirlərə də yer veriblər. Bildirilir ki, Azərbaycan Prezidenti müşavirədə ölkənin iqtisadi inkişaf proseslərindən söz açıb və cari ilin altı ayında ümumi daxili məhsulun azalmasına baxmayaraq, sənaye, kənd təsərrüfatında, o cümlədən qeyri-neft sektorunda artımın müşahidə olunduğunu deyib. Həmçinin vurğulayıb ki, ötən 6 ayda ölkə iqtisadiyyatına 6,3 milyard dollar sərmayə qoyulub və xarici investorlar üçün Azərbaycan cəlbedici ölkə olaraq qalır. Prezident İlham Əliyev 2016-cı ilin tarixdə dərin islahatlar dövrü kimi qalacağını deyərək strateji enerji və nəqliyyat layihələrinin uğurla icrası istiqamətində tədbirlərin davam etdirildiyini bildirib.

Bütün bunlar göstərir ki, Prezident İlham Əliyev həyata keçirdiyi daxili və xarici siyasət kursunu yeni dövrün tələblərinə uyğun davam etdirmiş, Azərbaycanın beynəlxalq arenada nüfuzunun daha da yüksəlməsinə və söz sahibinə çevrilməsinə nail olmuşdur.

*Rəşad BAXŞƏLİYEV, “Azərbaycan”*




























